

# Azərbaycan Qafqazda sülhü də bərqərar edəcək

**Azərbaycanın İkinci Qarabağ savaşında qələbə çalması və ardınca suverenliyini bərpa etməsi Cənubi Qafqazda dayanıqlı sülhə də birbaşa zəmin yaradıb.**

Ölkəmizin ard-arda qazandığı tarixə, ədalətə, beynəlxalq hüquqa əsaslanan qələbələri həm də dünyada illərdir davam edən bu tip münaqişələrin həlli üçün mükəmməl model ortaya qoydu. Qarabağ zəfəri sübut etdi ki, istənilən münaqişənin real həll yolları var. Bir halda ki, məsələ danışıqlar vasitəsilə dalana dirənib, o zaman güc variantını seçmək qaçılmaz olur və məhz Azərbaycan da Qarabağ münaqişəsinin 28 illik nəticəsiz danışıqlarına bu yolla son qoydu.

Martın 17-də NATO-nun Baş katibi Yens Stoltenberqlə mətbuata bəyanatla çıxışı zamanı Prezident İlham Əliyev də bildirdi ki, ölkənin ərazisi üzərində tam suverenlik bərpa edilib və bu, uzunsürən münaqişələrin necə həll edilə biləcəyinin bariz nümunəsidir: "Münaqişə hərbi-siyasi yolla həll edilib. Biz BMT Nizamnaməsinə əsasən özünümüdafiə hüququmuzdan istifadə etdik".

## Normallaşmanın bir addımlığında

Prezident İlham Əliyevin istər ölkənin iqtisadi inkişafı, istər hərbi gücü, istərsə də beynəlxalq nüfuzu istiqamətində apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycan haqlı mübarizəsində qalib gəldi, Qarabağ münaqişəsi kökündən həll edildi.

Ölkəmizin BMT-nin məlum qətnamələrini yerinə yetirərək torpaqlarını işğaldan azad etməsi, suverenliyini tam təmin etməsi və Qarabağda separatizm yuvasını dağıtması sayəsində Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşmasına da geniş imkanlar açıldı.

Bu faktdır ki, ərazilərimizin işğalı zamanı ATƏT-in keçmiş Minsk qrupunun "turist" diplomatları "danışıqlar" adı altında düz 28 il ərzində vəziyyətin Ermənistanın xeyrinə sonsuzadək dondurulması üçün əllərindən gələni etdilər. Çalışırdılar ki, Azərbaycan torpaqlarının işğalı ilə barışsın, ərazisində ikinci erməni dövlətinin yaranmasına göz yumsun. Bir sözlə, həmsədrlər beynəlxalq hüququ ayaqlar altına ataraq, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmətsizlik edərək böyük bir zaman kəsimində işğala, separatizmə dəstək verdilər. Əgər keçmiş Minsk qrupu vaxtında öz mandatına uyğun fəaliyyət göstərsəydi, nə 44 günlük Vətən müharibəsi, nə də antiterror əməliyyatlarına ehtiyac olardı.

Bakı hər zaman ikili standartlara, ədalətsizliyə qarşı bütün beynəlxalq tribunalardan bəyan edirdi ki, hansı yolla olursa olsun, işğala son qoyacaq və bayrağını bütün ərazilərində dalğalandıracaq. Bütün dünya 44 gün sürən Vətən müharibəsi və 23 saatlıq antiterror tədbirləri ilə bu bəyanların real müstəvidə qətiyyətlə yerinə yetirilməsinə şahidlik etdi. Həmçinin münaqişənin hərb yolu ilə həllindən sonra bölgədə sülh üçün yaranan tarixi fürsəti dəyərləndirdi.

Yuxarıda sözügedən bəyanatında dövlət başçısı İlham Əliyev bu məqama toxunaraq bildirdi ki, 28 il ərzində ATƏT-in Minsk qrupunun fəaliyyətinin nəticəsi olmadı: "Bu gün isə hesab edirəm və ümidvaram ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası nəticəsində bu mövzuda, nəhayət, nəticə əldə ediləcək. Zənnimcə, bu, Cənubi Qafqazda çox ciddi dəyişiklik olacaq. Bu isə o deməkdir ki, burada çoxdandır gözlənilən sülh bərqərar olacaq".

## "Sülhə heç vaxt olmadığımız qədər yaxınıq"

Xüsusi vurğulayaq ki, Azərbaycan 44 günlük müharibədən dərhal sonra Ermənistana sülh təklif edib və özünün beynəlxalq hüquqa əsaslanan beş baza prinsipini təqdim edib. Sülh təşəbbüskarı olan ölkəmiz ötən müddətdə bu istiqamətdə əməli fəaliyyət göstərib, real addımlar atıb.

"Hazırda isə biz Ermənistanla sülh danışıqlarının fəal mərhələsindəyik", - deyə NATO Baş katibi ilə birgə bəyanatında dövlət başçısı da sülh danışıqlarına başlamağın Azərbaycanın təşəbbüsü olduğunu bir daha diqqətə çatdırdı: "Bu günədək sülh sazişinin layihəsinə dair ermənistanlı həmkarlarla 7 dəfə şərhlərin mübadiləsi baş tutub. Xarici işlər nazirləri və sərhədlərin delimitasiyası ilə bağlı baş nazirlərin müavinləri arasında keçirilmiş görüşlər məsələnin həlli üçün yaxşı imkanın olduğunu nümayiş etdirir. Bu yaxınlarda qeyd etdiyim kimi, biz sülhə heç vaxt olmadığımız qədər yaxınıq".

Göründüyü kimi, hazırda Cənubi Qafqazda sülhə nail olunması üçün Azərbaycanın xüsusi səyləri sayəsində mühüm irəliləyiş əldə olunub. Ancaq regionda hadisələrin bu məcrada inkişafı, bölgə ilə bağlı məkrli planları olan bəzi riyakar Qərb ölkə və qurumlarını qətiyyən qane etmir. Bunların başında müstəmləkəçi Fransa və təsiri altına aldığı korrupsiya yuvasına çevrilmiş Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti gəlir. Qərəzli Qərb təsisatları gah artıq həll olunmuş "münaqişə"dən dəm vururlar, gah müxtəlif diplomatik, siyasi yollarla Azərbaycana təzyiq göstərməyə çalışırlar. Afrikadakı müstəmləkələrindən bir-bir qovulan neokolonialist Fransa hər vəchlə regionda sülhü əngəlləməyə çalışır, Cənubi Qafqaza yerləşmək üçün Ermənistanı silahlandıraraq yenidən bölgəni münaqişə mərkəzinə çevirmək istəyir. Təcavüzkar Ermənistan isə Qərbdən aldığı bu dəstəklə sülhdən yayınır, revanşa iştahlanır. Amma İrəvan özü də yaxşı bilir ki, onun Azərbaycanın tanıdığı tarixi sülh şansından yararlanmaqdan başqa çıxış yolu yoxdur.

Azərbaycan heç zaman riyakar Qərb dairələrinin Qafqazda çirkin planlarına imkan verməyəcək. Necə ki öz qətiyyəti ilə işğala, separatizmə son qoyub, eyni ilə də bölgədə dayanıqlı sülhü təmin edəcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2024.- 19 mart, № 61.- S.8.